Ziyalı sözü

# Azərbaycan haqq savaşında qalib gələcək

Ermənilərin başqa xalqların torpaqlarına göz dikmələri, işğalla, məkrlə, hiylə ilə öz mənfur niyyətlərini həyata keçirməyə çalışmaları hər kəsə məlumdur.

İki yüz ildir ki, tarixi saxtalaşdıran, faciələr, terrorlar, soyqırımlar törədən ermənilər əslində öz məqsədlərinə çataraq, yoxdan Ermənistan adlı bir dövlət yaratmağa nail olublar. Ancaq yenə, necə deyərlər, gözləri doymayıb, “Böyük Ermənistan” adı ilə başqa dövlətlərin daha çox ərazisini tutmaq niyyətində olublar. 1990-cı illərdə Azərbaycan xalqının başına gətirdikləri faciələri də mənfur ermənilər bu niyyətlə həyata keçiriblər. Bir həqiqət də var ki, qorxaq və ikiüzlü ermənilər təkbaşına Azərbaycan kimi böyük dövlətlə, azərbaycanlılar kimi mərd xalqla mübarizəyə girməyə heç vaxt cəsarət etməyiblər. Çünki bunun onlar üçün məğlubiyyətlə nəticələnəcəyini yaxşı biliblər. Odur ki, tarix boyu özlərinə havadarlar axtarıblar və məqam gözləyiblər. Dövrün ən mürəkkəb və ziddiyyətli vaxtlarında meydana çıxaraq öz məkrli niyyətlərini həyata keçirməyə çalışıblar. Əlbəttə, havadarlarının hərtərəfli dəstəyi ilə yenidən azərbaycanlılara qarşı hücuma keçən erməni vandalları 1988-ci ildən müxtəlif təxribat və terrorlar törədiblər. Nəticədə tarixi torpaqlarımız olan, sonradan müxtəlif yollarla Ermənistan dövlətinin ərazilərinə çevrilən tarixi yerlərindən soydaşlarımız qovuldular.

Bununla da kifayətlənməyib, Azərbaycan ərazilərinin 20 faizini işğal etdilər. 1994-cü ildə atəşkəs elan olunsa da, Ermənistan silahlı qüvvələri tərəfindən ərazilərimiz mütəmadi olaraq atəşə tutulubdur.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrə əsasən Ermənistan silahlı qüvvələri dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın ərazisini tərk etməli, 1 milyon məcburi köçkün yaşayış yerlərinə qayıtmalıdır. Təəssüf ki, Ermənistan dövləti beynəlxaq tələb və qətnamələri heçə alır.



Sentyabrın 27-dən başlayan müharibənin də səbəbkarı Ermənistan dövlətidir. Azərbaycan Ordusu düşmən təxribatının qarşısını alır, 30 ildir ərazilərimizi işğala məruz qoyan təcavüzkarlara layiq olduqları cavabı verir. Bu həqiqəti bütün dünya görür, duyur.

Bir neçə gün öncə Moskvada atəşkəs barədə razılığa gəlindi. Və yenə atəşkəs rejimini pozan tərəf Ermənistan oldu. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi heç bir beynəlxalq norma və prinsiplərə əməl etmir, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Dinc əhalini, çoxsaylı evləri, mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə almaqdan, uşaqdan tutmuş qocaya kimi mülki vətəndaşlara qarşı cinayətlər törətməkdən çəkinmir. Əhalinin kompakt yaşadığı yerlər, rayon və kənd mərkəzləri, infrastruktur obyektləri, məktəb binaları, uşaq bağçaları, xəstəxanalar, tibb məntəqələri hədəfə alınır.

Nəinki cəbhə bölgələri, hətta döyüş yerlərindən uzaq ərazilərimiz də Ermənistan hərbi qüvvələri tərəfindən raket və ağır artilleriyalardan atəşə tutulur. Oktyabrın 11-də gecə saat 2-də Azərbycanın ikinci böyük şəhəri Gəncədə törətdikləri faciələrdə Ermənistan dövləti öz təcavüzkar simasını növbəti dəfə göstərdi.

Dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti ilə Milli Ordumuzun müzəffər yürüşü göstərir ki, qələbə haqqın, ədalətin tərəfindədir. Azərbaycan öz haqq savaşında qalib gələcək.

***Zərifə SALAHOVA,***
***Miniatür Kitab Muzeyinin təsisçisi***

Azərbaycan. - 2020.- 30 oktyabr.- S.12.